**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№356/1** **16 may 2023-cü il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2022-ci 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə dəyişiklik edilməsi barədə**

Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında auditor xidmətlərinin dəyəri barədə obyektiv fikrin formalaşdırılması, habelə Auditorlar Palatasının üzvləri tərəfindən daxil olmuş müraciətləri nəzərə alaraq Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nin "İzahedici qeydləri"ndə dəyişiklik edilməsi barədə layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nin "İzahlı qeydlər"inin 4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"4. Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları üzrə müqavilə qiymətinin minimum həddi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınmaqla müəyyən edilir".

2. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, üç gün müddətində bu qərarın və dəyişiklik edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nin mətnlərinin Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**